# Nizami Gəncəvinin əsərlərində atanın oğluna nəsihətləri

**Könül Allahverdi qızı Məmmədova**
*ADPU-nun "Ümumi psixologiya" kafedrasının baş müəllimi*
**E-mail:** m.nicat.04@gmail.com

**Rəyçilər:** psixol.ü.f.d., dos. M.S. Əliyev,
psixol.ü.f.d., dos. N.T. Rzayeva

**Açar sözlər:** nəsihət, oğul, ata, tərbiyə, əsər
**Ключевые слова:** советы, сын, отец, воспитание, работа
**Key words:** advice, son, father, upbringing, work

Azərbaycan ədəbiyyatında görkəmli şairlərin öz oğlanlarına nəsihətləri məşhurdur. Bu əlamətdar ənənə öz qaynaqları ilə Nizaminin adı ilə bağlıdır.

Uşağın tərbiyəsində ailə münasibətlərinin rolu əvəzsizdir. Bu baxımdan nizami övlad-valideyn münasibətlərinin, xüsusilə ata-oğul münasibətlərinin təhlilinə böyük əhəmiyyət verirdi. Dünya mifologiyasında Adəm-Həvva rəvayətlərinin özünəməxsus yozumu var. Nizami isə bu bənzərsiz əhvalatı "övlad eşqi" ilə bağlayır.

Bu ideya "Xəmsə"nin bənzərsiz hekayətlərində özünəməxsus yönümdə səslənir. Övlad arxadır, dayaqdır. Şair övladı "ruh dərmanı", "ürək meyvəsi" adlandırır. Özünün təkcə balasını isə "ömrünün ilk gülü", "ağzının ləzzəti", "son piyaləsi" kimi səciyyələndirir, oğlu Məhəmmədi "kəlamının əkizi", "əsərinin qardaşı" sayır. Nizaminin fikrincə, övladın iqbalı ona yar olsa, "ata sevincindən bəxtiyar olar". Bu anlama görə:

İnsan bu dünyada daima yaşar
Yurduna bir övlad qalsa yadigar.

Nizaminin əsərlərində özünəməxsus psixoloji-pedaqoji tutumu olan "qəlbin tərbiyəsi" ifadəsinə təsadüf olunur. Qəlbin tərbiyəsi, ilk növbədə, uşağın hisslər aləminin, tələbat-motivasiya sahəsinin tərbiyəsidir. Nizaminin fikrincə, uşağın cismini "nazla, nemətlə", "körpə qəlbini" isə "şüurla, hikmətlə" bəsləmək olar. Ata öz övladını sevə-sevə təkcə dünyanın hikmətlərini deyil, həm də "ədəbdə hünər" öyrədir. "Uşaq tərbiyəsi" ilə valideynin adını "yeddinci göyə" ucaldır.

Nizaminin "Xosrov və Şirin" poemasında qeyd edilir ki, uşağı kiçik yaşlarından düzgün tərbiyə etmək vacibdir.

Övlad əyri bitən bir cavan budaq,
Zənn etmə, qocalsa düzgün olacaq.

"Xəmsə"də ata-oğul münasibətləri psixoloji incəliklə təhlil olunur. Xosrovun atası onu "şirin canından artıq" sevirdi. Onu öyüd-nəsihətlə böyüdürdü. Ancaq atasının buyruğu Xosrov üçün çox vaxt örnək olmurdu. Nizami quru, hisslərə arxalanmayan "nəsihət qanununun səsini" sözün əsl mənasında psixoloji mənasında "pis səs" adlandırırdı. Xosrov öyüd-nəsihətə əməl etməyib şikar zamanı bir kəndlinin evində "keç məclisi" düzəldəndə, atası onu cəzalandırır, hətta Xosrovun təxtini ev sahibinə hədiyyə verir. Xosrov isə "yaramaz iş tutduğunu" an-

layır. Atasının onu "çox haqlı cəza verdiyini" başa düşür. Bu günah onu rahat buraxmır: Xosrov ah çəkir, əlilə başına vurur. Atasına yalvarır, xahiş edir k, onu əfv etsin.

Nizami üçün ata-oğul münasibətləri mahiyyətcə şəxsiyyətlərarası münasibətlər idi. Onun fikrincə, bu münasibətlərin xarakteri təkcə atanın şəxsiyyəti ilə deyil, həm də oğulun şəxsiyyəti ilə şərtlənir. Oğul necə tərbiyə olunmalıdır? Hansı keyfiyyətlərə yiyələnməlidir? Şairin oğlu Məhəmmədin nəsihətlərində əslində bu özəmli psixoloji-pedaqoji suallara əsaslı cavabı verilmişdir.

"Oğlum Məhəmmədə nəsihətlər" Azərbaycan ədəbiyyatında, psixoloji və pedaqoji fikir tarixində ata nəsihətlərinin ilk və parlaq nümunəsi idi. Bu nəsihətlər Azərbaycan ailəsində önəmli olan "ata-oğul" münasibətləri kontekstində övladın həyat trayektoriyasının psixoloji mənzərəsini sistemli açıqlayırdı, köklü pedaqoji ölçülərə əsaslanırdı. İstər dünya, istərsə də, Şərq ədəbiyyatı, psixologiyası və pedaqogikasında bu nəsihətlər bənzərsizdir.

"Xəmsə"nin beş ölməz poemalarından üçündə - "Xosrov və Şirin", "Leyli və Məcnun" və "Yeddi gözəl"də Nizami oğlu Məhəmmədə nəsihətlə müraciət etmişdir.

Şairin "Xosrov və Şirin" poemasında "Oğlum Məhəmmədə nəsihət"i də bu kontekstdə başlayır:

Yeddi yaşlı balam, gözümün nuru!
Dilimin əzbəri, qəlbim süruru.
Ruzi verdi sənə o pərvərdigar,
Üstündə mənim yox, onun adı var.
Bu hilal dövründə gül, eyləmə qəm,
Bir neçə gün elə mən də gülmüşəm.
Bədr olan zamanda gözəl hilalın.
Nur saçacaq göyə sənin camalın
Bilik kəsb etməklə dünyanı qazan,
Əsmanı oxu ki, məna alasan.
Qaç o sözlərdən ki, mənasız, boşdur.
İlahi elmlər öyrənmək xoşdur.
Elə namuslu ol, desin hər görən,
"Ağıllı oğluna, Nizami, əhsən".

Nizami psixoloji cəhətdən son dərəcə maraqlı olan bir üslubda onu özünə başqa adamların gözüylə baxmağa çalışırdı. Eldə-obada isə namuslu və "ağıllı oğul" etalonu önəmli idi. "Xosrov və Şirin" poemasında göstərildiyi kimi:

Elə namuslu ol, desin hər görən,
Ağıllı oğluna, Nizami, əhsən!".

Ata-oğul münasibətlərinin xoş psixoloji ovqatı özünün səmimiliyi ilə diqqəti cəlb edir. Bu münasibətlər önəmli tərbiyə amili kimi dəyərləndirilməlidir. Onlar Nizami ailəsində bərqərar olmuş yüksək mənəvi-psixoloji iqlimi necə də əhatəli səciyyələndirir!

Nizami "Leyli və Məcnun" poemasına oğlu Məhəmmədə nəsihəti bu sözlərlə başlayır:

Sən, ey on dörd yaşlım, hər elmə yetkin!
Gözündə əksi var iki aləmin!
Yeddi yaşar oldun o zaman ki, sən,

Açıldın gül kimi, güləndə çəmən.
İndi ki, çatmışdır yaşın on dördə,
Başın sərv kimi durur göylərdə.
Qəflətdə oynama, qeyrət vaxtıdır,
İndi hünər vaxtı, şöhrət vaxtıdır.

Nizami "Leyli və Məcnun" poemasındakı "nəsihət"ində psixoloji məharətilə oğlunu atanın adından sui-istifadə etməməyə çağırırdı:

Ucalmaq istəsən, bir kamala çat,
Kamala ehtiram göstərər həyat,
Uşaqkən əslini sorsalar bir az,
Ağac bar verəndə cinsi sorulmaz!
Elə ki, böyüdün, belədir qayda
Atanın adından sənə nə fayda?

Nizami göstərir ki, əslini uşaqdan soruşurlar, 14 yaşında "başı sərf kimi" göylərdə duran bir oğlan uşağının isə "kamalına ehtiram edirlər". Elə buna görə də onun üçün ata adının faydası yoxdur. Psixoloji baxımdan son dərəcə maraqlı olan bu yozumda şair oğluna qiymətli məsləhətlər verir: ucalmaq istəsən, bir kamala çat; cəbhələrdən arslanlar kimi keç, yalnız öz hünərinin balası ol; xala hörmət elə; ədəbdə yaşa; "başına əfsanə düşdüyü zaman" bir anda "Allah qorxusunu unutma"; axırda utanıb xəcalət çəkməmək üçün "öz adına layiqli işlər gör...".

"Oğlum Məhəmmədə nəsihət" bütün məziyyətləri ilə yanaşı peşə yönümü, peşə seçiminin psixoloji-pedaqoji şərtlərinin açıqlanması kontekstində xüsusi əhəmiyyətə malikdir. Nizami peşələr aləmində - "əyri cizgilər cədvəlində" peşə seçərkən Məhəmmədin məhz özünü şərh edib öyrənməsini ayrıca vurğulayır. Azərbaycan psixologiyası və pedaqogikasında peşə yönümü nəzəriyyəsi və təcrübəsinin ilk səhifələri bəlkə də elə Nizaminin "Leyli və Məcnun" poemasındakı "oğlum Məhəmmədə nəsihət"də yazılmışdır.

Fəqih olsan əgər itaətkar ol,
Hiklədən, riyadan daim kənar ol.
İsa mərifətli həkim olsa, - amma,
İnsanı öldürən bir həkim olsa.
Həm həkim, həm fəqih olsan sən əgər,
Hamının yanında adın yüksələr,
Həyat da, ölüm də qul olar sana,
Səadət və şöhrət düşər payına.

Şair "Leyli və Məcnun" poemasında xüsusi vurğulayır ki, bir elmi öyrənmək isədikdə, gərək "hər şeyi kamil bilməyə" çalışasan. "Kamil palançı" yarımçıq paraqçılıqdan yaxşıdır.

Məndən söyləməkdir, səndən eşitmək,
Bir insan əliboş gəzməsin gərək.

**Məqalənin aktuallığı.** Nizami Gəncəvi nəinki Azərbaycan, həm də dünya psixologiyasının görkəmli nümayəndəsidir və onun psixoloji konsepsiyasının Azərbaycan psixologiyasının müasir nailiyyətləri baxımından tədqiqi aktual problem kimi əhəmiyyət kəsb edir.

**Məqalənin elmi yeniliyi.** XII yüzillikdə Azərbaycan psixoloji fikrində yaş xüsusiyyətləri mahiyyətcə yeni məsələ idi. Nizaminin bu məsələləri ayırd etməsi dünya psixologiyası tarixində də yeni, əlamətdar hadisə kimi dəyərləndirilməlidir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən praktik psixologiya təcrübəsində ailə və məktəb psixoloqları faydalana bilər.

## Ədəbiyyat

1. Ə.S.Bayramov., Ə.Əlizadə. Psixologiya. Bakı, 2006.
2. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı: “TS”, 2000.
3. R.Əliyev. Tərbiyə psixologiyası. Bakı, 2006.
4. Ə.Qədirov. Yaş psixologiyası. Bakı: Maarif, 2002.
5. Ə.Bayramov. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı: Azərnəşr, 1981.

**К.А. Мамедова**

## Совет отца сыну в произведениях Низами Гянджеви

## Резюме

В современной психологии изучение человеческой жизни на стыке исторических и культурных перспектив выявляет характеристики человеческого возраста в различных контекстах в контексте исторических изменений. С этой точки зрения советы Низами Гянджеви своему сыну Мухаммаду являются бесценным источником.

Каждый совет отца Низами Гянджеви имеет особое значение как уникальный философский, психологический и педагогический очерк. Впервые в истории азербайджанской психолого-педагогической мысли в совете отца систематически освещалась такая важная проблема, как воспитание мальчиков.

**K.A. Mamedova**

## Father's advice to his son in Nizami Ganjavi's works

## Summary

In modern psychology, he studies the human way of life at the crossroads of historical and cultural perspectives, reveals the characteristics of human age in different contexts in the context of historical changes. From this point of view, Nizami Ganjavi's advice to his son Muhammad is an invaluable source.

Each of Nizami Ganjavi's father's advices has a special significance as a unique philosophical, psychological and pedagogical essay. For the first time in the history of Azerbaijani psychological and pedagogical thought, such an important problem as the upbringing of boys was systematically highlighted in the father's advice.

**Redaksiyaya daxil olub:** 10.04.2021